28 oktyabr - 3 noyabr 2021-ci il İqtisadiyyat S.7.

# Kor Xəlifə (1811-1893)

**Kor Xəlifə ayaması ilə tanınan şair, xəttat, müəllim, Şuşa şəhərindəki Merdinli məscidinin axundu Molla Əli Molla Kəlbəli oğlu Qarabaği 1811-ci ildə Şuşa şəhərində dünyaya gəlmişdir. İbtidai təhsilini atasından almışdır.** Sonra Təbriz şəhərində mədrəsədə oxumuşdur. Təhsilini tamamlayandan sonra doğma yurduna dönmüş, Şuşa şəhərində Cümə məscidinin nəzdindəki mədrəsədə uşaqlara dərs demişdir. O, Qarabağda "Kor Xəlifə" ayaması ilə tanınırdı.

Molla Əli gözəl xəttat idi. Bir çox xətləri eynilə yazmaqda



mahir ustad kimi tanınmışdı. Onun işlərini hamı heyranlıqla qarşılayırdı. O dövrün bir çox tanınmış ailələri övladlarını Molla Əlinin yanında dərs almağa göndərirdi. Mirzə Kazım adlı bir şagirdi onun yazılarını toplayıb, "İnşai-Mirzə Kazım" adlı kitab çap etdirmişdi. Bu kitab mədrəsələrdə hüsnxət örnəyi kimi öyrədilirdi.

**Molla Əli həm də muğam həvəskarı idi. Xarrat Quludan sonra Şuşada yeni musiqi məktəbi açmışdı. O burada tələbələrə muğam oxumağı, tar və kamança çalmağı öyrədirdi. Kor Xəlifənin vəfatından sonra musiqi məktəbi də öz fəaliyyətini dayandırmışdır.**

Molla Əli 1893-cü ildə dünyasını dəyişmişdir. Onun Salah, Süleyman adlı oğulları vardı.